

# Azərbaycan bundan sonra qalib dövlət kimi yaşayacaq

> ***44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Bu tarix əbədi yaşayacaq. Çünki bu qələbə tarixdə bənzəri olmayan qələbədir. Azərbaycan xalqı buna layiq idi və biz qələbə əldə edərək düşməni öz doğma diyarımızdan qovduq, şəhərlərimizi azad etdik, doğma Şuşamızı azad etdik.***
>
> ***İlham ƏLİYEV***
> ***Azərbaycan Respublikasının Prezidenti***

***Azərbaycan ötən il 44 günlük Vətən müharibəsində özü haqqında məğlubedilməzlik mifi yaradan Ermənistan silahlı qüvvələrini darmadağın etdi. Ölkəmiz hərb tarixinə yenilik kimi düşən strategiya tətbiq edərək, ən müasir silahlardan yararlanmaqla, habelə minimal itkilər verərək, düşmənin bütün hərbi texnikasını sıradan çıxardı, canlı qüvvəsinə ciddi zərbə vurdu.***

Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərilməsinə baxmayaraq, Prezident İlham Əliyev qəti siyasi iradə göstərdi, bütün təzyiqlərə mərdanə şəkildə sinə gərərək onları dəf etdi, öz prinsipial mövqeyindən dönmədi. Dövlətimizin başçısı dünyanın aparıcı mediasına verdiyi 30-a yaxın müsahibə dünya informasiya məkanında Azərbaycana qarşı olan hücumları darmadağın etdi.

Beləliklə, Ermənistanın və onun havadarlarının işğala və tədricən Azərbaycan ərazilərinin ilhaqına əsaslanan planları alt-üst oldu. Regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yarandı. Yekun nəticədə Azərbaycan vətəndaşlarının 30 ilə yaxın davam edən torpaq həsrətinə son qoyuldu. Prezident İlham Əliyev nəyi necə və nə zaman etməyi özünün yaxşı bildiyini bir daha nümayiş etdirdi.

Prezident İlham Əliyev Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən avqustun 30-da ilk dəfə yenidən təşkil olun Vaqif Poeziya Günlərinin açılış mərasimindəki çıxışında da bu məqama xüsusi toxundu. Bildirdi ki, Birinci Qarabağ müharibəsində Şuşanın itirilməsi digər rayonların işğalına da təkan verdi. Ancaq Azərbaycan xalqı heç vaxt bu işğalla barışmadı: "İşğal dövründə mən dəfələrlə deyirdim ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq, işğal edilmiş bütün torpaqları, o cümlədən, Şuşanı nəyin bahasına olursa-olsun işğalçılardan azad edəcəyik".

Dövlətimizin başçısı nitqində vurğuladı ki, danışıqlar prosesi 30 ilə yaxın davam etdi, bunun heç bir nəticəsi olmadı. İndiki hadisələrin gedişatı, İkinci Qarabağ müharibəsindəki dövr və beynəlxalq güclərin hərəkətləri onu göstərir ki, bu məsələ heç vaxt danışıqlar yolu ilə öz həllini tapa bilməzdi. Çünki bizi, azərbaycanlıları bu vəziyyətlə barışdırmaq istəyirdilər. Bu vəziyyəti, yəni dondurulmuş münaqişəni alternativsiz bir variant kimi təqdim etməyə çalışırdılar: "Bizim isə tam başqa fikrimiz var idi və mən bunu heç vaxt gizlətmirdim. Deyirdim ki, əgər məsələ sülh yolu ilə öz həllini tapmasa, biz öz ərazi bütövlüyümüzü müharibə yolu ilə bərpa edəcəyik. Beynəlxalq hüququn bütün norma və prinsipləri bu haqqı bizə tanıyır. BMT-nin Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının qətnamələri, tarixi ədalət bu haqqı bizə verib. Biz buna nail olduq".

Prezident İlham Əliyev çıxışında, eyni zamanda, qeyd etdi ki, işğal dövründə həm keçmiş məcburi köçkünlər, həm bütün Azərbaycan xalqı, o cümlədən də mən dəfələrlə fikirləşirdik ki, dünyada ədalət yoxdur. Çünki ədalət olsaydı, biz bu vəziyyətə düşməzdik. Mən də, o cümlədən, belə fikirdə idim. Ancaq həyat göstərdi ki, ədalət var, sadəcə, dözümlü, səbirli olmaq lazımdır, ədalətə inanmaq lazımdır və ədalətə nail olmaq üçün çalışmaq lazımdır, hədəfə doğru getmək lazımdır. Ədaləti bərpa etmək üçün fədakarlıq göstərmək lazımdır: "Bu gün biz hamımız ürəyimizdə deyirik və açıq deyirik ki, bəli, ədalət var, ədalət bərpa edildi, biz bu gün Şuşadayıq və bundan sonra Şuşada əbədi yaşayacağıq".

Tarixi faktlar göstərir ki, uzun illər ərzində əzəli Azərbaycan torpaqlarında – Qərbi Azərbaycanda, Qarabağ və ətraf rayonlarda yaşayan azərbaycanlılara qarşı düşmən tərəfindən davamlı olaraq etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasəti yürüdülüb, soydaşlarımız doğma yurdlarından didərgin salınıb, qaçqın və məcburi köçkünə çevriliblər. "Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilər öz məqsədlərinə çatmaq üçün xarici himayədarların köməyi ilə müxtəlif vaxtlarda azərbaycanlılara qarşı terror və soyqırımı həyata keçirməklə etnik təmizləmə siyasəti apardılar. Təkcə XX əsrdə azərbaycanlılar dörd dəfə – 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə soyqırımı və etnik təmizləmələrə məruz qalıblar.

Onu xüsusi qeyd edək ki, SSRİ-nin süqutundan dərhal sonra isə Ermənistan havadarlarının köməyi ilə Azərbaycana qarşı təcavüzkar müharibəyə başladı, nəticədə ölkəmizin ərazisinin, təqribən, beşdəbirini işğal etdi, zəbt olunan torpaqlarda və Ermənistanın öz ərazisində bir milyondan artıq köklü azərbaycanlı etnik təmizlənməyə məruz qaldı. Bu təcavüz zamanı mülki azərbaycanlı əhaliyə qarşı insanlıq əleyhinə cinayətlər, o cümlədən, soyqırımı aktları törədildi.

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən il sentyabrın 27-dən başlanan Vətən müharibəsi şanlı qələbə ilə sona çatdı, 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu işğalçı Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək, böyük zəfərə imza atdı.

Ordumuzun Vətən müharibəsində Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatları nəticəsində ötən il noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəkləri və daha 5 adsız yüksəklik yağılardan təmizləndi.

Azərbaycan parlaq qələbənin ilk addım səslərini noyabrın 8-də Qarabağın ürəyi sayılan, incisi hesab olunan Şuşa şəhərinin işğaldan azad edildiyi ilk saatlarda eşitdi. Bəli, bu qədim yurd yerimizin xilası ilə tam qələbəmizə yol açıldı. Düşmənin ağ bayraq qaldırmaq və kapitulyasiya etməkdən başqa yolu qalmadı. Buna Ali Baş Komandan, məğlubedilməz sərkərdə İlham Əliyev nail oldu.

Döyüşdə uduzan, məğlub olan Ermənistanın öz müqavimətini dayandırmaqdan, Azərbaycanın şərtlərini qeyd-şərtsiz qəbul etməkdən başqa əlacı qalmadı. Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin birgə imzaladıqları bəyanat da məhz düşmən ölkənin kapitulyasiyasının ifadəsi idi. Müharibədə ağır itkilər verərək, məğlubiyyətin qaçılmazlığını anlayan, dərk edən işğalçı respublikanın rəhbərliyi Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtlərlə razılaşmağa məcbur oldu.

Xatırladaq ki, haqqında bəhs olunan birgə bəyanatda Ermənistan öz üzərinə Azərbaycanın işğal altında olan Ağdam, Kəlbəcər və Laçın rayonlarından qoşunlarını çıxaracağı öhdəliyini götürdü və buna əməl etdi. Bu isə haqqın qələbəsi, ədalətin təntənəsi idi.

Bütün bunlar, əlbəttə, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun yüksək peşəkarlıqla, əzmlə, qətiyyətlə apardığı müharibənin – işğaldan azadetmə əməliyyatının məntiqi nəticəsi idi.

Bu məqamda qeyd etmək istərdik ki, Azərbaycan tarixinə bu parlaq səhifələri yazmaq heç də asan olmadı. Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq məqsədilə Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərildi. Lakin bütün bu manеələrə baxmayaraq, Prezident, Ali Baş Komandan İlham Əliyev yüksək diplomatik peşəkarlıq, əzmkarlıq, qəti siyasi iradə nümayiş etdirərək, bütün çətinliklərə müdrikliklə sinə gərərək onların hamısını aradan qaldırdı.

Azərbaycan Prezidenti Vətən müharibəsindən sonra məcburi köçkünlərlə görüşlərinin birində onlarda hər zaman güclü iradə, yenilməzlik, dövlətə sədaqət gördüyünü, eyni zamanda, gözlərində nisgil, həsrət nəzərə çarpdığını da qeyd edərək, artıq buna son qoyulduğunu diqqətə çatdırıb. Dövlətimizin başçısı deyib: "Məcburi köçkünlər yaxşı bilirlər ki, onların öz dədə-baba torpaqlarına qayıtması üçün biz əlimizdən gələni edəcəyik, işğaldan azad edilmiş bu torpaqları yenidən quracağıq. İndi bütün dünya görür ki, mənfur düşmən bu torpaqları hansı vəziyyətə salıb. Bizim bütün binalarımız dağıdılıb, tarixi abidələrimiz dağıdılıb, muzeylərimiz talan edilib, təbiətimizə böyük ziyan vurulub, məscidlərimiz dağıdılıb, təhqir edilib. Azad edilmiş torpaqlarda yarıdağılmış məscidlərdə vəhşi düşmən bizi təhqir etmək üçün, bizim qürurumuza toxunmaq üçün donuz saxlayırdı. Amma biz onların qisasını artıqlaması ilə aldıq. Xocalı qurbanlarının da qisasını aldıq, şəhidlərimizin də qisasını aldıq".

Prezident İlham Əliyevin xatırlatdığı kimi, Ermənistan silahlı qüvvələrinin 30 ilə yaxın müddətdə işğal altında saxladığı tarixi ərazimizdə – Qarabağ bölgəsi və ətraf rayonlarda xalqımıza məxsus tarix və mədəniyyət abidələri dağıdılıb, mənimsənilib, tarixi-mədəni təyinatına uyğun olmayan şəkildə istifadə olunaraq vandalizmə məruz qalıb. Düşmən tərəfindən ən çox dağıdılan mədəni irs nümunələri İslam dini abidələri – məscidlər, türbələr və digər inanc yerləri olub. Ermənilər məscidlərin içərisində ev heyvanları saxlamaqla azərbaycanlılara qarşı öz nifrətlərini ortaya qoyublar. İşğal altındakı ərazilərdə yerləşən mədəni irsə, o cümlədən, xüsusi əhəmiyyətə malik unikal abidələrə bu cür barbarcasına münasibət əslində dünya irsinə qarşı yönəldilib.

*(ardı 2-ci səhifədə)*

# Azərbaycan bundan sonra qalib dövlət kimi yaşayacaq

*(əvvəli 1-ci səhifədə)*

Ermənistanın ölkəmizə qarşı belə vəhşiliyi, barbarlığı heç də təsadüfi deyildi. Düşmən əzəli-əbədi tarixi torpaqlarımızdan, necə deyərlər, iz-tozumuzu silməklə işğalçılıq siyasəti ilə əldə etdiyi ərazilərimizin unudulacağını, əsl sahiblərinin bir daha bu yerlərə dönməyəcəklərini düşünürdü. Dövlətimizin başçısının vurğuladığı kimi, "onlar hesab edirdilər ki, bu dağıntılardan sonra Azərbaycan əhalisi heç vaxt buraya qayıtmayacaq. O məqsədlə buranı dağıdıblar. Amma səhv ediblər. Biz qayıtmışıq. Bax, durmuşuq burada, öz doğma torpağımızda… Bütün buraları bərpa edəcəyik. Yeni böyük baş plan tərtib ediləcək. Müvafiq göstərişlər verilib. Hər bir şəhər üçün xüsusi baş plan tərtib ediləcək. Burada bütün inzibati binalar, ictimai binalar, məktəblər, tibb ocaqları yaradılacaq. Bütün infrastruktur yaradılacaq. Küçələr salınacaq, parklar, xiyabanlar salınacaq. Bütün şəhərlərdə qələbə abidələri ucaldılacaq və həyat qayıdacaq".

Şübhəsiz ki, bu dəhşətli yaraların sağalması, Azərbaycan şəhərlərinin, digər yaşayış məntəqələrinin bərpa edilməsi üçün çox böyük zaman, onilliklər lazım olacaq. Lakin Azərbaycanın siyasi əzmkarlığı, güc-qüdrəti, müdrik rəhbəri, əməksevər, səbirli və inadkar xalqı var. Bütün bunlar isə işğaldan azad edilən ərazilərin – kənd və şəhərlərin bir müddətdən sonra inkişaf yoluna qədəm qoyacağı əminliyi yaradır.

Artıq işğaldan azad olunan ərazilərimizin bərpası və yenidən qurulması ilə bağlı layihələrin reallaşdırılması sürətlə həyata keçirilir. Dövlətimizin başçısı tərəfindən erməni barbarlığının qurbanı olan yaşayış sahələrində mühüm strateji obyektlərin, müəssisələrin təməli qoyulur, tikinti işləri getdikcə vüsət alır.

Prezident İlham Əliyev Qarabağın bərpası məqsədilə bir sıra mühüm sənədlər imzalayıb, müvafiq təsisatlar yaradıb, aidiyyatı qurumlara tapşırıqlar verib.

Azərbaycan Prezidentinin tapşırığı ilə hazırda sosial-iqtisadi, humanitar, hüquqi və digər məsələlər üzrə yaradılan işçi qrupları, hazırlanan Strateji Fəaliyyət Planı əsasında nəzərdə tutulan işlər bütün istiqamətlər üzrə planlı və kompleks yanaşma əsasında reallaşdırılır.

Dövlətimizin başçısının tapşırığı ilə bu işlərin sürətli icrası məqsədilə Əlaqələndirmə Qərargahı yaradılıb və bütün aidiyyəti dövlət strukturları Qarabağın bərpası tədbirlərinə cəlb olunub.

Qarabağın və Şərqi Zəngəzurun bərpası ölkə rəhbərinin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında sərəncamı ilə müəyyənləşdirilən əsas hədəflər sırasında xüsusi yer alıb. Belə ki, növbəti 10 il üzrə inkişafımızın bundan sonrakı mərhələsi üçün yol xəritəsi sayılan bu sənədə görə, beş prioritetdən birində məhz düşməndən təmizlənən ərazilərə əhalinin qayıdışının daha intensiv formada reallaşdırılması, məskunlaşmanın dayanıqlığı və nəhayət, məskunlaşmış ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası nəzərdə tutulub.

Qarşıdakı onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair həmin beş milli prioritet sırasında işğaldan azad olunan ərazilərə böyük qayıdışın reallaşdırılması, Qarabağın dirçəlişinə nail olunması vəzifəsi xüsusi yer tutur. Bununla əlaqədar "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də deyilir: "Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xalqımızın çoxəsrlik tarixində möhtəşəm yer tutur. Dövlət sərhədlərini bərpa etməklə Azərbaycan xalqı son bir əsrdə hərbi və diplomatik sahədə ən böyük zəfərə nail oldu. Qələbənin əbədiləşdirilməsi üçün öz doğma torpaqlarından köçkün düşən insanların vətənə qayıdışı təmin olunmalıdır. Bu Böyük Qayıdış vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmasında və bu ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında bir körpü olacaqdır.

Regionda yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpa olunması ölkəmizin qlobal bazarlara çıxış imkanlarını artırmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin inkişafına əhəmiyyətli təkan verəcəkdir".

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də Qarabağın dirçəlişinin reallaşdırılması ilə bağlı qeyd edilir ki, əvvəlki dövrlərdə olduğu kimi, işğaldan azad edilən ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışı təmin edilməli, bu region ölkənin ən abad guşələrindən birinə çevrilməlidir. Müasir həyatın əsası olan layiqli yaşayışın bərpası üçün bütün sahələrdə quruculuğa nail olunmalıdır. Bu, stimullar əsasında və dövlət-özəl tərəfdaşlığının inkişafı çərçivəsində həyata keçirilməlidir. Yalnız belə şəraitdə işğaldan azad olunan ərazilərin Azərbaycanın böyük gələcəyinə tam inteqrasiyasını gerçəkləşdirmək mümkündür.

Prezident İlham Əliyevin işğaldan azad edilən şəhər və rayonlarımıza səfərləri çərçivəsində bərpa ilə bağlı qarşıya qoyulan vəzifələr, eyni zamanda, səfərdən sonra həmin ərazilərdə bərpa işlərinin aparılması ilə bağlı imzalanan sənədlər xarabaya çevrilən kənd və şəhərlərimizin qısa müddətdə gülüstana çevriləcəyindən xəbər verir.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 7 sentyabr.- S.1;2 .